http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №01 (1533) 16 yanvar 2012 - ci il Qiyməti 20 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülən işlər, Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olmuşdur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 12-də Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülən işlər, Dövlət Bayrağı Meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olmuşlar.**

Bakı-Ələt avtomobil yolunun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi layihəsinin icrası ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Burada müasir standartlara cavab verən 8 zolaqdan ibarət yüksək səviyyəli yolun inşa olunduğu bildirildi. Piyadaların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə yol boyu piyada keçidləri də inşa olunacaqdır.

Dövlətimizin başçısına yeni salınan bulvarda aparılan işlər barədə də məlumat verildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanında və onun ətrafında həyata keçirilən abadlıq və quruculuq işləri ilə yaxından tanış oldular. Görülən işlər barədə Prezidentə məlumat verildi.

Dövlətimizin başçısı və xanımı ərazidə inşa olunan yeni İdman-Konsert Kompleksinin tikintisinə də baxdılar. İnşaat işləri ilə tanışlıqdan sonra Prezident İlham Əliyev həyata keçirilən tədbirlərlə bağlı icraçılara müvafiq tapşırıqlarını verdi.



## ATU-nun kredit sistemi ilə təhsil alan tələbələrinin bilikləri kompyuterlə yoxlanılır

**Azərbaycanın ən tanınmış və qocaman təhsil ocaqlarından olan Azərbaycan Tibb Universitetində 2011/2012-ci tədris ilinin qış imtahan sessiyasında kredit sistemi ilə təhsil alan tələbələrin test imtahanları kompyuter vasitəsilə aparılır.**

İlk belə imtahan dekabrın 30-da keçirilmiş və ümumi tələbələrin təxminən 40 faizini əhatə etmişdir. Bu yenilik Bolonya prosesi əsasında kredit bal sistemini tətbiq edən fakültələrə şamil edilir. Universitetdə ilk olaraq 2006-cı ildə Tibbi Biologiya fakültəsi bu sistemə keçib. Buna görə də bu fakültənin tələbələrinin hamısı artıq yeni sistemlə imtahan verirlər.

İmtahanları yüksək səviyyədə təşkil etmək məqsədilə ATU-nun rektoru, akademik Əhliman Əmiraslanovun tapşırığı ilə universitetin 5 saylı korpusunda iki kompüter zalı təşkil olunub. Bu zallar son model, güclü proqram təminatı olan avadanlıqlarla təchiz edilib. İki zala ümumilikdə 210 kompüter yerləşdirilib. Zalları daimi nəzarət altında saxlamaq üçün onlar kameralarla təchiz olunub. Kameraların çəkdiyi görüntülər birbaşa olaraq rektorun otağındakı və Virtual Test Mərkəzindəki əsas kompüterlərə ötürülür.

İmtahanların gedişini izləmək məqsədi ilə yanvarın 10-da Səhiyyə naziri, professor Oqtay Şirəliyev və ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov virtual mərkəzdə oldular.

Nəzarətçilər və tələbələrlə qısa söhbət apararaq yeni sistemi necə qarşıladıqlarını soruşdular. Hətta rektorun "Bəlkə ənənəvi sistemə qayıdaq" sualına tələbələr birmənalı olaraq yeni sistemin daha əlverişli olduğunu söylədilər. Tələbələr imtahanın kompüter-test üsulu ilə aparılmasını biliklərinin obyektiv qiymətləndirilməsi baxımından ən optimal



vasitə hesab etdilər, heç bir subyektin imtahana müdaxilə etmək imkanının olmamasını müsbət hal kimi dəyərləndirdilər.

İmtahanların yüksək səviyyədə təşkilindən, həmçinin gedişindən razı qaldıqlarını bildirən Səhiyyə naziri və universitetin rektoru tələbələrə təhsillərində müvəffəqiyyətlər arzuladılar.

Mərkəzin rəhbəri, dosent Şahin Bayramov məlumat verdi: "İlk olaraq bu yeni formatlı imtahana Tibbi Profilaktika və Stomatologiya fakültəsinin tələbələri qatılıblar. Zalların quruluşu və proqramları imkan verir ki, biz eyni vaxtda eyni zalda müxtəlif fakültələr üçün paralel imtahanlar keçirək. Yəni, eyni fakültə tələbələri yanaşı əyləşməyəcək. Və üstəlik, onlar müxtəlif fənlərdən imtahan verəcəklər. Lap eyni fakültənin eyni kursunun eyni fəndən imtahan verən iki tələbəsi yanaşı düşsə belə, onların bir-birindən köçürməsi alınmayacaq. Çünki, test sualları fərqli variantlarda olacaq. Kompüterləri də elə düzmüşük ki, professorlar yanda oturanın monitorunu qarşısını tutsun".





Ş.Bayramov imtahanın şəffaf və müdaxiləsiz keçməsi üçün görülən digər tədbirlərdən də danışdı: "İmtahanda iştirak edəcək kompüterlərin informasiya çıxışı yoxdur, yeni onların fleş və disk yerləri qapılıdır. Həmçinin, bu kompüterlərin şəbəkəyə çıxışı yoxdur. Hələlik hansı mümkün variantlar ağlımıza gəlibsə, onların qarşısını almışıq".

İmtahan zamanı ATU tələbələri elektron şəxsi işinin kodunu daxil etməklə öz səhifələrinə girəcəklər. Burada tələbə haqda zəruri məlumatlar (adı, kursu, fakültəsi, şəkli), o cümlədən verdiyi imtahanlar barədə informasiya (imtahan günü, vaxtı, davametmə müddəti, verilən cavab variantları, toplanılan bal və s.) yer alıb. Tələbə öz səhifəsindən imtahan bölməsinə girib testdə iştirak edəcək. Cavablarını təsdiqləyən kimi düzgün cavab variantları və onun yığdığı balların sayı ekrana çıxacaq.

Ş.Bayramov dedi ki, bu prosesə müdaxilə etmək mümkün deyil: "Kompüterlər şəbəkəyə daxil olmadığı üçün onlara müdaxilə mümkün deyil. Bununla yanaşı, imtahana düşən testlərin kimlərsə tərəfindən əldə edilib tələbələrə ötürülməsi, imtahanın nəticəsinə təsir edəcək neqativ halların baş verməsi mümkün deyil. Çünki bu sualları artıq İnternetdə yerləşdirmişik və kimlərinsə bu cür tədbirlərə əl atmasına, vasitəçilik etməsinə ehtiyac qalmır".

Mərkəz rəhbərinin dediyinə görə, ümumilikdə imtahan sualları çoxdur və hamısının cavab variantlarını əzbərləmək qeyri-mümkündür. Tələbə test bankında tanış olduğu suallardan yalnız 25-nə imtahanda cavab verəcək. Yəni, tələbə imtahana yaxşı hazırlaşsa, bal toplaya biləcək: "Biz digər universitetlərdə işlədilən proqramlarla tanış olmuşuq. Onlarda tətbiq edilən proqramlara dəyişikliklər edib keyfiyyətini artırmışıq. Odur ki, imtahanın yüksək səviyyədə və problemsiz keçəcəyini gözləyirik".

Qeyd edək ki, yeni imtahan formasının tətbiqi ilə bağlı ATU-nun rektoru, akademik Ə.Əmiraslanov bir neçə dəfə ardıcıl olaraq tələbələrlə görüşüb, onların təkliflərini dinləyib.

Hazırda ATU- nun I və II Müalicə-profilaktika, Pediatriya, Tibbi-profilaktika və Tibbi-biologiya, Stomatologiya, Əczaçılıq, həmçinin Hərbi-tibb fakültələrində 7500-dən artıq tələbə təhsil alır. 2006-cı ildən etibarən tədricən bütün fakültələr kredit sisteminin tətbiqinə başlayıblar. İndi bu sistem bütün universiteti (müxtəlif kursları) əhatə edir. Ən sonda daha böyük fakültələr, say baxımından tələbə kontingentinin yarısını təşkil edən Müalicə və Stomatologiya fakültələri Bolonya sisteminə keçib. İmtahanlar 5 növbədə aparılır. Gün ərzində 1050 tələbə ayrı-ayrı fənlər üzrə imtahan verə bilir. Ümumilikdə isə 2774 tələbə orta hesabla 8 fəndən kompyuter test imtahanından keçəcəkdir.

**MƏNSUR**

# Prezident Administrasiyası rəhbərinin sərəncamı ilə «20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı» təsdiq edilmişdir

◆ **Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə «20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı» təsdiq edilmişdir.**

Sənəddə respublikanın bütün şəhər və rayonlarında, o cümlədən müəssisə, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, «dəyirmi masa» və mühazirələrin təşkil olunması, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, faciənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 19-da faciəyə həsr olunmuş xüsusi dərs keçiləcək, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə xüsusi dini mərasimlər təşkil olunacaqdır.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, ardınca isə gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində matəm əlaməti olaraq və faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

**AzərTac**

# Azərbaycanlı tələbə Türkiyədə rezidentura imtahanında xarici tələbələr arasında ən yüksək nəticə göstərib

◆ **Həmyerlimiz Asif Arif oğlu Səlimov 1987-ci ildə Bakıda anadan olmuşdur. Orta təhsilinin ilk üç ilini Azərbaycanda tamamladıqdan sonra 9 yaşında ikən - 1996-cı ildə atası professor Arif Səlimovun Türkiyənin Atatürk Universitetində işə dəvət olunması ilə əlaqədar bu ölkədə yaşamağa başlamışdır.**

A.Səlimov Anadolu liseyini bitirdikdən sonra 2005-ci ildə Türkiyə ali məktəblərində təhsil almaq istəyən abituriyentlərin Bakıda keçirilən imtahanında (TCS) tibb fakültəsini seçənlər arasında birinci yer tutaraq Hacəttəpə Universitetinə daxil olmuşdur. Universitetə daxil olduqdan sonra ingilis dili imtahanını da müvəffəqiyyətlə verərək birillik ingilis dili hazırlığı kursunda oxumadan birbaşa tibb təhsilinə başlamaq hüququ qazanmışdır. Dördüncü kursda ilin ən uğurlu tələbəsinə verilən daxili xəstəliklər üzrə «Professor Şərəf Zirəli» plaketinə layiq görülmüşdür. Asif Səlimov təhsilini 2011-ci ilin iyununda müvəffəqiyyətlə başa vurduqdan sonra həmin il sentyabrın 25-də keçirilən rezidentura imtahanında Türkiyədə tibb sahəsində təhsil alan xarici tələbələr arasında həm baza, həm də klinik elmlər üzrə ölkə birincisi olmuşdur. Həmvətənimiz bu nəticə ilə Hacəttəpə Universitetinin tibb fakültəsi xəstəxanasında qulaq-burun-boğaz xəstəlikləri üzrə ayrılmış yeganə yerə qəbul olunmuş, hazırda orada təhsilini davam etdirir.

Həmyerlimiz deyir ki, rezidentura imtahanı sentyabrda keçirildiyinə görə dövlət proqramına keçmək üçün bir il gözləmək məcburiyyətindədir. Çünki dövlət proqramına müraciət avqustun sonunda bitir. Buna görə də 2012-ci ilin sentyabrından etibarən dövlət proqramına keçərək təhsilimə davam edəcəyəm. Təhsil aldığı müddətdə ona verilən dəstəyə görə Azərbaycan dövlətinə və Türkiyə hökumətinə hər zaman minnətdarlıq hissi duyduğunu bildirən Asif Səlimov gələcək arzuları ilə bağlı deyir: «Təhsilimi başa vurduqdan sonra Azərbaycana qayıdıb yüksək ixtisaslı həkim kimi xalqıma xidmət etmək istəyirəm».

**AzərTac**

# Görkəmli alim, akademik Adilə Namazovanın 85 illik yubileyi qeyd edilmişdir

◆ **Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin binasında görkəmli alim, ictimai xadim, pediatr, kardioloq, Azərbaycan Tibb Universitetinin (ATU) I Uşaq Xəstəlikləri Kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Adilə Namazovanın anadan olmasının 85 illik yubileyinə həsr edilmiş tədbir keçirilmişdir.**

ATU-nun rektoru, AMEA-nın Biologiya Elmləri Bölməsinin akademik-katibi, millət vəkili, akademik Əhliman Əmiraslanov bildirmişdir ki, tədbir Səhiyyə Nazirliyi, ATU və AMEA-nın birgə təşkilatçılığı ilə keçirilir.

Ə.Əmiraslanov alimin şərəfli və mənalı ömür yolundan, çoxşaxəli fəaliyyətindən söz açmışdır. O, Azərbaycan elminin görkəmli simalarından olan akademik Adilə Namazovanın 85 illik yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərin mənəvi-ideoloji əhəmiyyət daşıdığını vurğulamışdır.





Sonra Azərbaycan Tibb Universitetinin Tədris-terapevtik klinikasının direktoru, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Surxay Musayev akademik Adilə Namazovanın həyat və fəaliyyəti ilə bağlı məruzə etmişdir.

Natiq bildirmişdir ki, Adilə Namazova 1926-cı ildə Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur. Orta təhsilini Ağdamda almış, 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə Ağdam rayonu mərkəzi xəstəxanasında başlamışdır. 1965-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunun klinik pediatriya kafedrasının müdiridir. 1965-ci ildə tibb elmləri doktoru dərəcəsi almışdır. 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilmişdir. Hazırda Rusiya Federasiyası tibb elmləri akademiyasının üzvüdür. 1981-ci ildən səhiyyə əlaçısı və Azərbaycanın əməkdar elm xadimidir. 1982-ci ildə Azərbaycan dövlət mükafatına layiq görülmüşdür. AMEA-nın həqiqi üzvüdür. 1976-cı ildən Azərbaycan Pediatrlar Cəmiyyətinin sədridir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının rəyasət heyətinin üzvü, Türkdilli Ölkələrin Pediatrlar Cəmiyyətinin vitse-prezidentidir. SSRİ Ali Sovetinin deputatı olmuşdur. "Şöhrət" ordeni ilə təltif edilmişdir. Adilə Namazovanın tədqiqatları uşaqlarda revmatizmin fəal dövründə ürəyin funksional vəziyyətinin, ürək arakəsmələrinin anadangəlmə qüsurlarının xüsusiyyətlərinin öyrənilməsi olmuşdur. O, ürək üzərində cərrahi əməliyyata - korreksiyaya göstəriş və əks-göstərişi müəyyənləşdirmiş, ilk dəfə olaraq ürəkdə aparılmış cərrahi əməliyyatların yaxın və uzaq dövrlərdə nəticələrini qiymətləndirmişdir. Adilə Namazova Azərbaycanın ilk qadın pediatr alimi sayılır. 300 elmi əsərin, 8 monoqrafiya və dərsliyin, 5 ixtiranın müəllifidir.

Akademik A.Namazovanın zirvələrə ucalan həyat yolu, sadəliyi və nəcibliyi, xalqına göstərdiyi xidmətlər yeni nəsillər üçün dəyərli nümunədir.

Tədbirdə Milli Məclis sədrinin müavini Bahar Muradova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin deputatı Qənirə Paşayeva, Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Nizami Sadıqov, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, akademik İsmayıl İbrahimov və başqaları görkəmli alimi yubileyi münasibətilə təbrik etmiş, yubilyarın Azərbaycanın tibb elminin inkişafındakı xidmətlərindən, şərəfli ömür yolundan söz açmış, alimlə bağlı xoş xatirələrini söyləmişlər.



Fotolar Cənnətalı Çingizindir

Akademik Adilə Namazova ona göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirmişdir.

Tədbir bədii hissə ilə davam etdirilmişdir.

**Arif MƏMMƏDLİ**

# ÜRƏYİ VƏTƏN ÜÇÜN DÖYÜNƏN İNSAN

**Ölkəmizdə görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin, ictimai xadimlərin xatirəsi həmişə uca tutulur, onların yubileyləri ümumxalq bayramına çevrilir. Bu ənənə ümummilli liderimiz H.Əliyevdən gəlir və çox sevindiricidir ki, indi də davam edilir. Möhtərəm prezidentimizin xüsusi sərəncamları ilə 2011-ci ildə də bir çox yazıçı və alimlərimizin yubileyləri geniş qeyd olunmaqdadır. Bu şəxsiyyətlərin sırasında görkəmli ədibimiz, xalq yazıçısı, akademik Mirzə Əjdər oğlu İbrahimov da var. Onu da deyək ki, Təhsil naziri M.Mərdanovun əmri ilə bu böyük insanın 100 illiyi ali və orta məktəblərimizdə də geniş qeyd olunmalıdır. Buna uyğun olaraq biz də dərs ilinin əvvəlində M.İbrahimovla bağlı tədbirlər planı tərtib etmiş və onların əsas hissəsini həyara keçirməyə çalışmışıq.**



50-70-ci illərdə (XX əsr) orta məktəbdə oxuyanlar bir çox sovet yazıçılarının, o cümlədən M.İbrahimovun əsərlərinin, onların vətənpərvər müsbət qəhrəmanlarının təsiri ilə tərbiyələnmiş, vətənə, xalqa, dövlətə sədaqəti, milli təfəkkürü onlardan öyrənmişlər. Mirzə İbrahimov gənc yaşlarından istedad və bacarığı, qibtə olunası zəhmətsevərliyi və təşkilatçılığı ilə həmyaşıdları arasında seçilmişdir.

O, 1911-ci ildə Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində yoxsul bir ailədə doğulmuş, anasını erkən itirmiş, 1918-ci ildə atası və böyük qardaşı ilə Bakıya gəlmiş, burada da tale üzünə gülməmiş, atası və qardaşı dünyasını dəyişmişlər. Əvvəlcə dayısının himayəsində yaşayan uşaq sonralar müxtəlif evlərdə nökərçilik etmiş, yaşa dolanda Balaxanıda və Zabrat qəsəbəsində fəhləlik işləmiş, axşam məktəbində oxumuş, şəxsi mütaliəyə ciddi fikir vermişdir. Söz sənətinə olan güclü meyli onu Zabratdakı ədəbiyyat dərnəyinə gətirib çıxarmışdır. Onun yazıçı kimi yetişməsində bu dərnəyin rolunu sonralar Mirzə müəllim səmimiyyətlə xatırlayırdı.

Yaradıcılığa şeirlə başlayan Mirzə İbrahimov az sonra aktual mövzulu hekayələri, oçerkləri, dram əsərləri ilə yazıçı şöhrətinə sahib olmuş, qələmini o dövr üçün çox vacib olan ədəbi tənqid sahəsində də işlətmişdir. Aspirant kimi ərsəyə gətirdiyi "Böyük demokrat" monoqrafiyası (1939) ona alim hörməti qazandırmışdır. Mirzə İbrahimov bir yazıçı və ədəbiyyatşünas alim olmaqdan başqa, həm də bacarıqlı təşkilatçı, ictimai xadim idi. 1933-cü ildə - 22 yaşında ikən o, Naxçıvanda çıxan "Sürət"qəzetinin redaktoru olmuşdur. 30-cu illərin sonlarında Mirzə müəllim M.F.Axundov adına Opera və Balet teatrının direktoru işləmişdir. 1941-45-ci il müharibəsində qəzet redaktoru kimi Cənubi Azərbaycanda çalışan yazıçı şahidi olduğu hadisələri sonralar hekayələrə, sənədli oçerklərə çevirmiş, az keçmiş irihəcmli nəsr əsərləri kimi işləmişdir. Mirzə İbrahimov 1945-ci ildə Azərbaycan Respublikasında Elmlər Akademiyası yaradılarkən böyük Səməd Vurğunla bərabər onun həqiqi üzvü seçilmişdir. (Onda Mirzə müəllimin 34, Səməd Vurğunun 39 yaşı var idi). 1942-46-cı illərdə Azərbaycan SSR Təhsil naziri işləyən M. İbrahimov 1950-ci ildə "Gələcək gün" romanına görə SSRİ Dövlət mükafatı laureatına (o zaman Stalin mükafatı) layiq görülmüşdür. Ümumiyyətlə, Mirzə İbrahimov ömrünün çox hissəsini yüksək dövlət və ictimai vəzifələrdə keçirmiş, lakin heç vaxt milli ruhlu ziyalı adını, vətənpərvər, xalqa və torpağa bağlı yazıçı borcunu unutmamışdır. Ədəbiyyatımıza "Həyat", "Məhəbbət", "Madrid", "Kəndçi qızı", "Yaxşı adam", "Közərən ocaqlar" kimi dram əsərləri, "Güləbətin", "Xosrov Ruzbeh", "Fırtına quşu" kimi povestlər, "Gələcək gün", "Böyük dayaq", "Pərvanə" kimi romanlar, "Cənub hekayələri" adlı silsilə hekayələri, xeyli ədəbi tənqidin aktual məsələlərinə aid əsərlər bəxş edən Mirzə İbrahimovun adı xalqımızın yaddaşında kommunist rejiminin antimilli qadağalarına əks olaraq Azərbaycan dilinin dövlət dili statusunda işlənməsi üçün dəridən-qabıqdan çıxan fədakar xalq ziyalısı kimi qalmışdır. Mənim yaşıdlarımın və məndən böyüklərin yaxşı yadındadır ki, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin sədri olanda - 1956-cı ildə respublikada Azərbaycan dilinin dövlət dili kimi işlənməsi haqqında Azərbaycan SSR Konstitusiyasına onun səyi ilə maddə daxil edilir. Həmin il Mirzə İbrahimovun "Kommunist" qəzetində (25 oktyabr 1956) "Azərbaycan dili dövlət idarələrində" adlı məqaləsi dərc olunur. O, böyük vətəndaşlıq duyğusu ilə dilimizə olan qeyri-humanist, bəzən təhqiramiz dərəcəsinə çatan münasibəti açıq-aşkar göstərir və bunun böyük ədalətsizlik olduğunu qətiyyətlə nəzərə çatdırır. O zaman bu məqalə həm insanlarımızda özünüdərkin sürətlənməsinə səbəb oldu, həm də bir çox "beynəlmiləlçi" "sovet vətənpərvərləri"ndə kəskin etiraz reaksiyası yaratdı (bu barədə istedadlı tarixçi, professor C.Həsənli və professor E.Əzizovun müfəssəl yazıları dərc olunmuşdur). Mərkəzdə və respublikada yazıçını millətçilikdə, antibeynəlmiləlçilikdə tənqid etdilər, onun səhv mövqe tutduğunu sübut etməyə çalışdılar. Mirzə müəllim dediyinin üstündə möhkəm durdu, fikrini təkzibedilməz dəlillərlə sübut etdi. Müzakirələrdən birində o belə bir fakt göstərmişdi: katibə fəhlənin azərbaycanca yazdığı ərizəni üstünə atıb demişdir: "Mən sizin fransız dilini başa düşmürəm". Nəhayət, bu hadisə onunla nəticələndi ki, Mirzə müəllimi 1958-ci ildə Ali Sovetin sədrliyindən kənarlaşdırdılar, xeyli müddət xüsusi nəzarətdə saxladılar. M.İbrahimov iti qələmli yazıçı, incə ruhlu ədib kimi yenə də şöhrətin zirvəsinə doğru irəlilədi. Ona görə ki, o, xalqa bağlı vətəndaş, ürəyi el məhəbbəti ilə dolu ziyalı idi.

Bəli, Mirzə müəllim bir an da olsun xalqa olan sonsuz sevgisindən, onun dilindən, mədəniyyətindən, adət-ənənəsindən ayrı düşməmiş, özünü xalqın xidmətçisi hesab etmişdir. Təsadüfü deyil ki, ümummilli liderimiz Heydər Əliyev 70-ci illərdə rəhbərlikdə olarkən M.İbrahimova dərin hörmət bəsləmiş, onun birbaşa müdaxiləsi ilə bir sıra məşhur sənət adamlarımıza SSRİ-nin ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilərkən onların sirasında Mirzə müəllimin də adının olmasını layiq bilmişdi.

Mirzə İbrahimov 1993-cü ildə - xalqımız üçün ağrılı olan bir dövrdə dünyasını dəyişdi. Onun vəfatından keçən bu 18 il Mirzə müəllimi candan artıq sevdiyi xalqından nəinki uzaqlaşdırmış, əksinə, bir az da yaxınlaşdırmışdır. Mən unudulmaz yazıçımız, böyük vətənpərvər Mirzə İbrahimov haqqındakı bu yazımı millət vəkili, Xalq şairi, böyük azərbaycançı Sabir Rüstəmxanlının sözləri ilə tamamlamaq istəyirəm: "...Təkcə "Gələcək gün" romanının milli düşüncəmizin formalaşmasında oynadığı rolu etiraf etmək Mirzə müəllimin böyük məfkurə mübarizəsinin sərhədlərini cızmağa dəyər. Bizim ədəbi nəsil vaxtilə Bakıya bir neçə insanın işığına gəlirdi ki, o insanlar arasında "Gələcək gün" romanının müəllifinin yeri ən öndə idi..." ("Ədəbiyyat qəzeti", 9.IX. 2011).

**A.Miriyev,**
*Azərbaycan dili kafedrasının müdiri, dosent*

# İstedadlı alim, bacarıqlı pedaqoq

**Azərbaycan Tibb Universitetinin otorinolarinqologiya kafedrasının müdiri, Əməkdar həkim, tibb elmləri doktoru, professor Əzizağa Mehdi oğlu Talışinskinin anadan olmasının 70, müalicə, elmi, pedaqoji və ictimai fəaliyyətinin 45 ili tamam oldu.**



Əzizağa Mehdi oğlu 14 yanvar 1942-ci ildə Lənkəran rayonunda anadan olmuşdur. 1960-cı ildə orta məktəbi qızıl medalla qurtarıb N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1967-ci ildə institute əla qiymətlərlə başa vurmuş, Ryazan Tibb İnstitutunun qulaq-burun-boğaz kafedrasına klinik ordinaturada oxumağa göndərilmişdir. 1969-1972-ci illərdə həmin kafedranın aspiranti olub və yaxşı kliniki hazırlıq, təhsil-tədris və elmi-tədqiqat işlərində xeyli təcrübə qazanmışdı.

Ə.Talışinski 1972-ci ildə namizədlik dissertasiyası müdafiə edərək 1973-cü ildə müsabiqə yolu ilə assistent, 1985-ci ildə isə Azərbaycan Tibb İnstitutunun qulaq-burun-boğaz kafedrasına dosent seçilmişdir.

1982-1986-cı illərdə Moskva qulaq-burun-boğaz ETİ-də doktorantura keçmiş, "Otogen sepsis və kəllədaxili ağırlaşmaların patogenezi, klinikası və müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1987-ci ildə professor, 1995-ci ildən isə ATU-nun otorinolarinqologiya kafedrasının müdiridir.

Ə.Talışinskinin tələbələr üçün mühazirələri yüksək məzmunlu, yeniliyi, anlayışlı olması, eyni zamanda akademik üsulla ifadə tərzi ilə fərqlənir və özünə çoxlu sayda tələbə-həkim auditoriyası cəlb edir.

Professor Ə.Talışinski 170 elmi işin, o cümlədən 6 ixtiranın, 1 monoqrafiyanın, Tibb Universitetinin tələbələri və həkimlər üçün tədris vəsaitlərinin həmçinin bir neçə elmi-metodik işləmələrin müəllifidir. Onun elmi-tədqiqat işləri otogen sepsis və kəllədaxili ağırlaşmaların patogenezi, diaqnostika və müalicə üsullarının təkmilləşdirilməsinə həsr olunub. O, otogen sepsis və beyinin sərt qişasının venoz cibləri-nin zədələnmələrinin klinik təsnifatını vermiş, beyinin sağ yarımkürəsinin və başqa lokalizasiyalı abseslərin simptomlarını öyrənmişdir.

Ə.Talışinski beyin yarımkürələri və beyinciyin otogen abseslərinin müalicəsində qulağın trepanasiyası yarasından aşkar edilməsini və otogen beyin abseslərinin abses möhtəviyyatının müalicəvi üsullarla balanslaşdırılmış miqdarda yerdəyişməsi üsulunu təklif etmişdir.

Professor Ə.Talışinskinin rəhbərliyi altında burun çəpərinin deformasiyaları zamanı onun korreksiyası işlənib ki, bunu da 5 yaşdan yuxarı uşaqlarda tətbiq etmək mümkündür. O, ilk dəfə respublikada qulaq-burun-boğaz kafedrasının uşaq bazasında anestezioloji xidməti təşkil edib, uşaqlarda otorinolarinqologiya əməliyyatlarını ümumi anesteziya ilə aparılması üsullarını təkmilləşdirir.

Ə.Talışinskinin elmi işləri MDB, ABŞ, İsrail, İsveç, İran, Türkiyə, Yunanıstan, İslandiya, İtaliya, Koreya, Avstraliya, Almaniya, Braziliya kimi ölkələrin nəşrlərində çap olunub.

O, çoxsaylı regional beynəlxalq toplantı, konqress və simpoziumlarda iştirak edərək məruzələrlə çıxış edib. Onun 2008-ci ildə İtaliyada çağrılan XVIII Dünya Otorinolarinqoloji Konqresindəki çıxışı həkim auditoriyasının böyük marağına səbəb olmuş və xüsusi nəşrdə dərc edilmişdir.

Uzun illər Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş otorinolarinqoloqu, Respublika otorinolarinqoloqlarının elmi-tibbi cəmiyyətinin və Attestasiya komissiyasının sədri işləmişdir.

O, FOS (Ümumdünya Otolarinqoloji Cəmiyyəti), Avropa Otolarinqoloji Cəmiyyəti, Amerika Otorinolarinqologiya baş və boyun cərrahiyyə akademiyasının, "Vestnik otorinolarinqoloji" və "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətlərinin üzvüdür.

Onun rəhbərliyi altında çoxlu otorinolarinqoloqlar hazırlanmış, ixtisas üzrə həkimlər internatura, kliniki ordinatura, aspirantura keçmiş, 6 namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Ə.Talışinskini 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, yubilyara möhkəm cansağlığı, xoşbəxtlik, elmi və pedaqoji fəaliyyətində uğurlar diləyirik!

**Qulaq-burun-boğaz kafedrasının kollektivi**
**Azərbaycan Otorinolarinqoloqlar Elmi-tibbi cəmiyyəti idarəsi**

# Nəsillərə örnək ömür

**XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiyada yüzlərlə azərbaycanlı ziyalı, mədəniyyət, incəsənət xadimi və həkimlər yaşamışdır. Onların haqqında geniş ictimaiyyətə yetərli məlumat yoxdur. Azərbaycanın ilk pianoçu xanımlarından biri Nəzirə Yaqubova da məhz onların biridir.**

Nəzirə Yaqubova Qulamşah Mirzə Qaçar qızı 1898 - ci ildə Tiflis şəhərində anadan olmuşdur. O, Qafqazda çox məşhur olan Müqəddəs Nina məktəbini bitirən ilk müsəlman qızlarından biridir. 1910 - cu ildə Tiflis musiqi məktəbinə, 1914 - cü ildə Sankt-Peterburq konservatoriyasında, və Sankt - Peterburq qadın tibb institutuna qəbul edilərək təhsilini başa çatdırır. Musiqi fəaliyyəti ilə yanaşı, həkimlik fəaliyyəti ilə də məşğul olub. Sonralar o, Gürcüstanın əməkdar həkimi adına layıq görülüb. Çox savadlı ziyalı xanım olan Nəzirə xanım rus, gürcü, ərəb, fars, fransız, ingilis və alman dillərini də mükkəmməl bilirdi.

Gürcüstanın mətbuat səhifələrində Zaqafqaziya dəmiryol xəstəxanasının pasiyentlərinin çoxsaylı minnətdarlıq məktublarında qayğı və xoş münasibətə görə həkim Nəzirə xanıma öz minnətdarlıqlarını bildirirdilər. Dərc olunmuş məktublardan birində belə qeyd edilirdi: "Onun təbəssümü və xoş sözləri hər hansı dərmandan yaxşı müalicə edir. Onlar öz həkimlərini hər şeydən əvvəl əsl insan hesab edirdilər".

Onun həkimliklə bərabər musiqi fəaliyyəti də çox maraqlıdır. O, Sankt - Peterburq konservatoriyasında məşhur musiqiçi pedaqoq Adolf Yakovleviç Steyderin sevimli tələbəsi olmuşdur. Bu illər onun həyatının ən gərgin və ən xoşbəxt dövrü olmuşdur: *tibb institutunda təhsil, məşhur fortepiyanoçu professor Droyeqovun yanında məşğələlər.* Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar hərbi hospitallarda işləri yerinə yetirməsini özünün vətənpərvərlik borcu kimi qəbul edirdi. Nəzirə xanımın həyatında tibbə və musiqiyə olan çox güclü maraq, insan həyatında belə halların parallel inkişafı, hələ tarixdən məlumdur. Bu nöqteyi nəzərdən Nəzirə xanımın həyatına diqqət yetirdikdə



böyük humanist həkim və məşhur musiqiçi Nobel mükafatı laureatı Albert Sveytseri yada salmamaq olmaz, çünki onun həyatı bu məşhur musiqiçinin bioqrafiyası ilə qəribə şəkildə səslənir.

Nəzirə xanım da bu iki sənətdən hansının daha önəmli olması məsələsində seçimini tibbin xeyrinə etmişdi. Gözəl həkim və maraqlı musiqiçi, qayğıkeş insan Nəzirə Qulamşah Mirzə Qaçar qızı Yaqubova ömrünün 92 yaşında 1990-cı ildə vəfat etmişdir. Təbəbət, musiqi və insana olan sonsuz məhəbbət onun fəal həyat mövqeyini təsdiq edir.

**Həqiqət Xudaverdiyeva,**
*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti*

# Mirzəmmət Əlimət oğlu Novruzov

**Əsaslı Kitabxananın kollektivinə ağır itgi üz vermişdir. 1980-ci ildən direktor vəzifəsində işləyən M.Novruzov 2011-ci il dekabrın 29-da dünyasını dəyişmişdir.**



M.Novruzov 1936-cı il dekabr ayının 25-də Qusar rayonunun Ləcət kəndində anadan olmuşdur. 1948-ci ildə Ləcət kənd ibtidai məktəbini, 1951-ci ildə Cibir kənd yeddillik məktəbini bitirmişdir. Əmək fəaliyyətinə 1953-cü ildə Ləcət kənd kitabxanasında kitabxanaçı vəzifəsində işləməklə başlamışdır.

1957-ci ildə Bakı Kitabxanaçılıq Texnikumunda təhsil almış, 1957-1959-cu illərdə Qusar rayon Mədəniyyət evində bədii rəhbər vəzifəsində işləmişdir.

1959-1962-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş, 1962-1967-ci illərdə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1969-cu ilin fevral ayından 1980-ci ilin iyun ayınadək Respublika Kənd Təsərrüfatı Elmi Kitabxanasında baş kitabxanaçı- metodist vəzifəsində işləmişdir. 1980-ci ildən ömrünün sonunadək ATU-nun Əsaslı Kitabxanasının direktoru vəzifəsində çalışmışdır. O, işlədiyi müddətdə Əsaslı Kitabxananın ştat vahidinin 35-dən 70-ə çatdırılmasına, əmək haqlarının ödənilməsi tarifini III qrup-dan II qrupa keçirilməsinə nail olmuşdur. Yeni - yeni şöbələr və bölmələr yaradılmışdır.

M.Novruzov Əsaslı Kitabxananın ictimai işlərində fəallıq göstərmişdir. O, ömrünün 58 ilini kitabxana işinə həsr etmişdir.

O, Əsaslı Kitabxananın direktoru vəzifəsində işlədiyi müddətdə Universitetin elmi, pedaqoji fəaliyyətində, tədris prosesində, ideya-tərbiyə işlərinin həyata keçirilməsində öz əməyini əsirgəməmişdir. Özünün ciddi, tələbkar olması ilə bərabər qayğıkeşliyi ilə də kollektivin sevimlisinə çevrilmişdir.

M.Novruzovun əziz xatirəsi Əsaslı Kitabxana kollektivinin, Universitet əməkdaşlarının və tələbələrinin qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**
**Qəbri nurla dolsun!**

*Əsaslı Kitabxananın kollektivi*

# HƏKİMLİK ƏN HUMANİST SƏNƏTDİR

**❍ Həkimlik sənəti ən humanist və xeyirxah sənətdir. Sənətə vurğunluq, insanları duyub-anlamaq, hətta «ürəkdən keçənləri üzdən oxumağı» bacarmaq həkim üçün vacibdir. Müxtəlif xəstəliklərin diaqnostika və müalicəsində tibb işçisindən fitri istedad və yüksək intuisiya tələb olunur.**

**İş günü ərzində həkimin qəbuluna çoban da, fəhlə də, şair də, kosmonavt da, rəssam da gələ bilər. Hamı ilə «eyni dildə» danışmaq həkimi gözdən sala bilər. Hər xəstə ilə onun özünəməxsus tərzdə, səviyyədə danışsa, sözü yerində işlətməyi bacarsa həkimin nüfuzu artar və apardığı müalicə səmərəli olar. Əlbəttə, buna nail olmaq həkimdən dərin bilik, bacarıq, geniş dünyagörüşü tələb edir.**




Tarixin inkişaf mərhələlərində həkimlik müqəddəs sənət kimi qiymətləndirilmiş, təbibdən xüsusi keyfiyyətlər tələb edilmişdir. Buna görə də dövrünün qabaqcıl ziyalıları, şairlər, yazıçılar həkimlik sənətinə həmişə hörmətlə yanaşmışlar. Nizami, Füzuli, Sabir yaradıcılığında bu baxımdan təbbə və həkimə dair qiymətli fikirlərə rast gəlmək olur. Dünyanın bir sıra filosofları, dramaturqları, şairləri, nasirləri eyni zamanda həkim olmuşdur.

Həkimin müayinəsinə gələrkən hər bir xəstə deyəcəyi sözləri, narahatlığını ölçüb-biçməli, götür-qoy etməlidir. Bəzən xəstələr dərdlərini düzgün izah edə bilmir, bu isə həkimin işinin çətinləşməsinə səbəb olur. Həmişə yadda saxlamaq lazımdır ki, xəstə həkim müayinəsinə gələrkən təmiz geyinməli, özünü intizamlı aparmalı, həkimin suallarına düzgün cavab verməlidir.

Həkimlik çox humanist bir sənətdir. Azərbaycan həkimlərindən Abbas Səhhət, N.Nərimanolv, M.Qədirli, M.Vəkilov təkcə xəstələri sağaltmaqla kifayətlənməyib, kasıb xəstələrə, ağır vəziyyətdə olanlara həmişə maddi yardım göstərmişlər. Hazırda Tibb Universitetində və xəstəxanalarda fəaliyyət göstərən həkimlərin əksəriyyətində bu ənənəni davam etdirmək xüsusiyyəti var. Necə deyərlər, «ürəyi ürəklə müalicə edərlər». Xəstəni yalnız qəlbinin odu-alovu ilə isitməyi bacaran həkim müalicə edib müvəffəqiyyət qazanar və öz adını, şərəfini qoruya bilər.

Həkim şəxsiyyəti, həkimlik etikası, həkimin cəmiyyətdə rolu, həkim-xəstə münasibətləri kimi bir sıra vacib məsələlərin həlli təbabətin yarandığı vaxtdan bu günə qədər mübahisəlidir. Hətta vəzifə borcunu yerinə yetirmək haqqında elmdeontologiya yaranmışdır. Bu elm həkimlik, hüququşünaslıq və s. ixtisasları əhatə edir.

Müasir xəstəni dərmandan əvvəl həkimin sözü, qayğısı, münasibəti sağaldır, burada həkimin şəxsiyyəti böyük rol oynayır.

Sonda onu qeyd etmək istəyirəm ki, həkimlik ən humanist, ən ülvi, ən çətin və şərəfli sənətdir.

**Məhərrəm Bəşirov,**
*ATU-nun əməkdaşı*

# Britaniyanın tibb işçiləri sağlam adamlara aspirin qəbul etməyi məsləhət görmürlər

◆Bir çox adamlar ürək tutmasının və ya insultun qarşısını almaq ümidi ilə aspirin qəbul edirlər. Lakin bəlkə də onlar özlərinə daha çox ziyan vururlar. 100 min nəfərdən çox adam arasında aparılmış araşdırmanın Arcives of İnternal Medicine jurnalının səhifələrində dərc olunmuş nəticəsi təsdiq edir ki, daxili qanaxma riski bu preparatın faydasından daha çox olur.

Məlumdur ki, aspirin trombositlərin birləşməsinə mane olaraq tromb əmələ gəlməsinə imkan vermir. Bundan başqa, alimlər dəfələrlə aspirinin xərçəng əleyhinə xassələrə malik olduğunu sübut etməyə cəhd göstərmişlər. Lakin həmişə burada daxili, o cümlədən beyindaxili qanaxma riski onların qarşısını kəsmişdir. Aspirinin qəbulu zamanı bu risk xeyli artır.

2005-ci ildə Britaniyada buraxılmış direktivlərə görə, insult və ürək tutması riski qrupunda olan 50 yaşdan yuxarı şəxslərə hər gün 75 milliqram aspirin qəbul etmək tövsiyə olunur. Lakin sonradan ekspertlər qeyd etmişlər ki, belə qabaqlayıcı terapiya təhlükəlidir.

Londonun Müqəddəs Georgiya Universitetinin professoru Rey Kausik bu məsələyə nöqtə qoymağı qərara almışdır. O, həmkarları ilə birlikdə müəyyən etmişdir ki, aspirin qəbul edən adamlarda ölümlə nəticələnməyən ürək tutmalarının sayının 20 faiz azalması müşahidə edilir, lakin ürək tutmasından, insultdan və ya xərçəngdən ölənlərin statistikasına aspirin heç bir təsir göstərməmişdir. Özü də qanaxma ehtimalı 30 faiz artmışdır.

# Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir:

**◆ Məlumat verildiyi kimi, Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətinə malik kadrlarla komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.**

Xatırladırıq ki, vakant ştat vahidləri əsasən cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının tibb xidmətlərindədir.

Tibb xidmətinə qulluğa qəbulla bağlı açıq müsabiqədə iştirak etmək istəyən və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən **həkim-ftiziatr, həkim-rentgenoloq, həkim-terapevt, həkim-psixiatr-narkoloq, həkim-anestezioloq-reanimatoloq, torokal həkim-cərrah, rentgenotexnik, feldşer-laborant, feldşer və tibb bacısı (qardaşı)** ixtisaslı Azərbaycan Respublikasının vətəndaşları ərizə və müvafiq sənədləri təqdim edə bilərlər.

Ərizə və sənədlər Tibb baş idarəsinin inzibati binasında *(Bakı şəhəri, Bülbül prospekti 2; "Sahil" metro stansiyasının yaxınlığı)* bütün iş günləri qəbul edilir.

Tibb xidmətinə qulluğa qəbulla bağlı aidiyyəti məsələlərlə, o cümlədən tələb olunan sənədlərin siyahısı ilə aşağıdakı internet səhifələrində və telefonlar vasitəsilə əlavə məlumat almaq olar:

- **Ədliyyə Nazirliyi üzrə www.justice.qov.az,**

**tel: 430-01-18, 430-11-05;**

**Nazirliyin Tibb xidməti üzrə tel: 493-06-50, 493-30-91.**

**Arzu edənlərin müsabiqədə iştirakından məmnun olardıq.**

**ƏDLİYYƏ NAZİRLİYİ**

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs, $40^b$ qrup tələbəsi Səddam Qubad oğlu Ağamalıyevin adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $73^b$ qrup tələbəsi Quliyev İlkin Elşən oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $753^b$ qrup tələbəsi İbadova Ləman Elman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Əczaçılıq fakültəsinin dekanlığı, Həmkarlar Təşkilatı, rus dili, Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları, tibbi biologiya və genetika, ümumi və toksikoloji kimya kafedralarının əməkdaşları "Təbib" qəzetinin baş redaktoru Eldar İsmayıla həyat yoldaşı

**Səmayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Stomatologiya fakültəsinin dekanlığı, ictimai sağlamlıq və səhiyyənin təşkili, rus dili, Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedralarının əməkdaşları Əsaslı kitabxananın direktoru

**Mirzəməd Novruzovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası kafedrasının kollektivi kafedranın əməkdaşı Nərgiz Axundovaya həyat yoldaşı

**Sərdarın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neonatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Naibə xanım Məmmədovaya bacısı

**Qənirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedrasının əməkdaşları tarix kafedrasının əməkdaşı Səbinə Əliyevaya atası

**Məmmədvəli Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi gigyena və ekologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi V.Əliyevə əzizi

**professor Müseyib Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları Dürdanə Nağıyevaya və Səbinə Əliyevaya əzizləri

**Məmmədvəli Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Suqra xanıma qaynı

**Fikrət bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bədən tərbiyəsi və idman kafedrasının müəllimi Nərgiz Mehdiyeva patoloji anatomiya kafedrasının baş müəllimi Təranə Mirzəyevaya anası və Elnur İrəvanlıya nənəsi

**Mənsurə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmi-Tədqiqat Travmatologiya və Ortepediya İnstitutunun ortepеd-travmatoloqu Hüseyn Əliyev və "İdeal Dental" stomatoloji klinikasının stomatoloqu Şahin Əliyev Elnur İrəvanlıya nənəsi

**Mənsurə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları, 98
1-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 3750
Sifariş: 860